AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ
YÜKSƏK TƏHSİL İNSTİTUTU

Aqil Ağamirzəyev Şakir [I Fəsil, II Fəsil]

Sənan Manafov Zakir [Giriş, Nəticə, III Fəsil]

MİKROSERVİS ARXİTEKTURALI İNFORMASİYA SİSTEMLƏRİNDƏ ƏLÇATANLILIĞIN TƏMİN OLUNMASININ KOMPLEKS TƏDQİQİ

Mövzusunda

MAGİSTRLİK DİSSERTASİYASI

“060509” Kompüter Elmləri

“60509 ” Sistem Proqramlaşdırması

Elmi rəhbər. f.r.e.n., dos. Şahverdiyev M.Ə

BAKI – 2024

AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ

YÜKSƏK TƏHSİL İNSTİTUTU

MAGİSTRANTIN ANDI

Mikroservis arxitekturalı informasiya sistemlərində əlçatanlılığın təmin olunmasının kompleks tədqiqi mövzusunda təqdim etdiyimiz magistrlik dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazdığıma and içiriəm(ik) və magistrlik dissertasiyasının AzTU Kitabxana İnformasiya Mərkəzində saxlanılması, həmin mərkəz tərəfindən AzTU Rəqəmsal Repozitoriyasına daxil edilərək repozitoriyanın veb saytında yerləşdirilməsinə icazə veririk.

Ağamirzəyev Aqil _____

Manafov Sənan _____

Tarix

Mündəricat

GİRİŞ

Mövzunun aktuallığı. Mikroservis arxitekturalı informasiya sistemlərində əlçatanlılığın təmin olunmasının kompleks tədqiqi mövzusu, müasir texnologiya və iş mühitlərinin tələblərini qarşılamaq üçün böyük aktuallıq kəsb edir. Mikroservis arxitekturası, ənənəvi monolitik sistemlərə nisbətən daha çevik, modulyar və skalabil bir yanaşma təklif edir. Bu arxitektura, böyük və kompleks tətbiqlərin daha kiçik, müstəqil və bir-birindən asılı olmayan xidmətlərə bölünməsi əsasında işləyir. Bu yanaşma, inkişaf etdirici komandaların daha sürətli və çevik işləməsinə, yeni funksionallıqların asanlıqla əlavə olunmasına və problemlərin daha sürətli həll olunmasına imkan verir. Əlçatanlıq, hər hansı bir informasiya sisteminin əsas tələblərindən biridir. İstifadəçilər, xidmətlərin fasiləsiz və yüksək performansla işləməsini gözləyirlər. Mikroservis arxitekturası, əlçatanlıq və davamlılıq baxımından ənənəvi arxitekturalara nisbətən daha üstün imkanlar təqdim edir. Bu arxitektura, mikroservislər arasında yük paylanması, səhv təcridi və avtomatik bərpa kimi xüsusiyyətlər vasitəsilə sistemin ümumi əlçatanlığını və etibarlılığını artırır. Məsələn, bir mikroservis səhv işləsə belə, bu, digər mikroservislərin fəaliyyətinə təsir etmir və sistem ümumi olaraq işləməyə davam edir.

Müasir rəqəmsal dünyada, yüksək əlçatanlıq və performans təmin edən sistemlər qurmaq, bizneslərin rəqabət qabiliyyətini artırır. Mikroservis arxitekturası, bu tələblərə cavab verərək, xüsusilə elektron ticarət, bankçılıq, səhiyyə və digər kritik sahələrdə geniş istifadə olunur. Bu sistemlər, istifadəçilərə fasiləsiz xidmət təqdim etməklə yanaşı, biznes proseslərinin effektivliyini artırır və müştəri məmnuniyyətini təmin edir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın əsas məqsədi mikroservis arxitekturasının xüsusiyyətlərini və bu arxitekturaya xas olan əlçatanlıq problemlərini nəzərə alaraq, bu problemlərin həlli üçün effektiv və innovativ yanaşmaların inkişaf etdirilməsi və tətbiq olunmasıdır. Bu, həm texnoloji, həm də təşkilati baxımdan əlçatanlıq səviyyəsinin artırılmasını və sistemlərin etibarlılığının yüksəldilməsini təmin edəcəkdir.

Tədqiqat metodları. Proqram təminatının hazırlanması mərhələsi üzrə həm frontend, həmdə backend texnologiyalarından istifadə olunub. Əsas istifadə olunan

texnologiyalar Java, Spring Boot, PostgreSQL, MongoDB, Redis, Spring Security, SAGA, CQRS. Serverə yerləşdirmək üçün AWS cloud istifədə olunub. Tədqiqat metodları – Proqram təminatının hazırlanması mərhələsi üzrə həm frontend, həmdə backend texnologiyalarından istifadə olunub. Əsas istifadə olunan texnologiyalar Java, Spring Boot, PostgreSQL, MongoDB, Redis, Spring Security, SAGA, CQRS. Serverə yerləşdirmək üçün AWS cloud istifədə olunub.

Elmi yeniliyin elementləri. Tədqiqatın elmi yeniliklərinə bəzi müddəalar daxil etmək olar. Bunlara:

1. Yük Balanslaması: ArticleHub platformasının müxtəlif hissələrində (məsələn, axtarış, məqalələrin çapı) yük balanslaması üçün yeni metodlar təklif etmək. Məsələn, Kubernetes və ya istənilən container orchestrator istifadə edərək, mikroservislərin avtomatik şəkildə şkala artırılması və azaldılması.

2. Keş İdarəetməsi: Populyar məhsulların məlumatlarını Redis və ya Memcached kimi keş texnologiyaları istifadə edərək daha sürətli çatdırmaq.

3. Mikroservislərin Test Edilməsi: Hər bir mikroservisin müstəqil şəkildə test edilməsi üçün yeni bir test çərçivəsi təklif etmək. Məsələn, kontrakt testləri və chaos mühəndislik istifadə edərək xidmətlərin davamlılığını və dayanıqlığını təmin etmək.

4. Real-Time Monitoring: Prometheus və Grafana kimi alətləri istifadə edərək, real-time performans monitorinqi və anomaliyanın aşkarlanması.

Praktiki həll. Tədqiqatda bəzi praktik həllər daxildir. Bunlara:

1. Yeni Arxitektura Dizaynı və Nümunələri - Məqalə İdarəetmə Mikroservisi: Məqalələrin yaradılması, redaktəsi və dərc edilməsi üçün xüsusi mikroservis dizayn edin. Bu mikroservis məqalələrin versiya idarəsini, avtomatik saxlanmasını və real-time redaktəsini təmin edə bilər.Elasticsearch və Redis kimi texnologiyaları istifadə edərək sürətli və effektiv axtarış imkanları təqdim edir.

2. İnnovativ Texnologiya və Alətlər - AI ilə Məqalə Təklifi: Maşın öyrənməsi və NLP (Natural Language Processing) texnologiyaları istifadə edərək istifadəçilərə maraqlandıqları mövzularda məqalə təklifləri verən bir mikroservis hazırlayırıq.

Məqalələrin avtomatik olaraq kateqoriyalara ayrılması və etiketlənməsi üçün AI modelləri tətbiq edirik. Blockchain ilə Məzmun Etibarlılığı: Məqalələrin orijinallığını və müəllif hüquqlarını qorumaq üçün blockchain texnologiyasından istifadə edirik. Hər bir məqalənin orijinal olduğunu və dəyişdirilmədiyini təmin edən bir sistem inkişaf etdirik.

3. Performansın Təkmilləşdirilməsi - Yük Balanslaması və Keş İdarəetməsi: Platformanın müxtəlif hissələrində yük balanslamasını optimallaşdırmaq üçün Kubernetes istifadə edirik. Sürətli məzmun çatdırılması üçün Redis və ya Memcached kimi keş texnologiyaları istifadə edirik. Məsələn, populyar məqalələrin məlumatlarını keşləyərək istifadəçilərə daha sürətli çatdırır.

4. Test və Monitoring - Avtomatlaşdırılmış Test və CI/CD: Mikroservislərin müstəqil şəkildə test edilməsi üçün kontrakt testləri tətbiq edin. Hər bir mikroservisin funksionallığını təmin etmək üçün unit və integration testlər yazırıq. CI/CD proseslərini optimallaşdırmaq üçün Jenkins və ya GitLab CI/CD kimi alətlər istifadə edirik. Avtomatlaşdırılmış test və deployment proseslərini tətbiq edirik.

5. Real-Time Monitoring və Log Analitikası - Prometheus və Grafana kimi alətləri istifadə edərək, real-time performans monitorinqi və anomaliyanın aşkarlanmasını təmin edirik. ELK stack (Elasticsearch, Logstash, Kibana) istifadə edərək logların toplanması və analitikası üçün bir sistem qururuq.

Müdafiə üçün təqdim edilən nəticələr. Sürətli Yükləmə Zamanı mikroservis arxitekturasına keçid nəticəsində səhifələrin yükləmə zamanının 60% qədər azaldılması. Redis və Elasticsearch istifadə edərək axtarış və filtrasiya proseslərinin 30% qədər sürətlənməsi. Yüksək Ölçəklənəbilənlik Kubernetes ilə mikroservislərin avtomatik şəkildə şkala artırılması və azaldılması nəticəsində platformanın daha çox istifadəçi tələbatını qarşılayabilməsi. Pik dövrlərdə xidmətin dayanıqlılığının və performansın stabil saxlanılması.

Nəticələrin aprobasiyası. Aşağıda nəticələrin aprobasiyası verilmişdir. Bunlar:

- Anketlərin İcrası: Platformanın aktiv istifadəçilərinə göndərilən anketlər vasitəsilə istifadəçi təcrübəsi haqqında məlumat toplanmışdır. İstifadəçilərin əksəriyyəti məqalə

redaktəsi və axtarışı funksiyalarının sürətlənməsi və rahatlığının artması haqqında müsbət geri dönüş vermişdir.

- İstifadəçi Geri Dönüşlərinin Analizi: Toplanan məlumatlar analiz edilərək mikroservis arxitekturasının istifadəsi nəticəsində istifadəçi məmnuniyyətinin 35% artdığı müşahidə edilmişdir.
- Load Testing: Apache JMeter istifadə edərək, platformanın müxtəlif xidmətlərinin yüksək yük altında performansı ölçülmüşdür. Məsələn, Pik saatlarda mikroservis arxitekturası ilə platformanın istifadəçi tələblərinə cavab vermək qabiliyyəti stress testlər ilə sınanmış və qənaətbəxş nəticələr əldə edilmişdir.
- Stress Testləri: Platformanın performansı maksimum yük altında test edilmiş və sistemin stabilliyi təmin olunmuşdur.

Nəşrlər. Azərbaycan Texniki Universiteti və Bakı Dövlət Universitetində aşağıdakı mövzulara aid məqalələr və tezislər təqdim etmişik. Bunlar:

1. Müasir informasiya sistemlərində n+1 performans problemi və həll üsulları (Bakı Dövlət Universiteti. 2024).
2. Müasir arxitekturalı ayrılmış bank informasiya sistemlərində tranzakiyaların idarə olunmasında saga patterinin tətbiqi (Bakı Dövlət Universiteti. 2024).
3. Müasir informasiya sistemlərində monolit və mikroservis arxitekturaların rolu və həll etdiyi problemləri (Azərbaycan Texniki Universiteti. 2024).
4. Mikroservislər arxitekturalı informasiya sistemlərdə api gateway patternin nəzəri və praktiki tətbiqi (Azərbaycan Texniki Universiteti. 2024).

I FƏSİL. İNFORMASIYA SISTEMLƏRINDƏ ARXITEKTURA

1.1 Arxitektura nədir?

Proqram təminatının arxitekturası sistemin yüksək səviyyəli dizayını və strukturunu ifadə edir. Bir proqram təminatının müxtəlif komponentlərinin necə qarşılıqlı əlaqədə olmasını, məlumatların necə idarə olunmasını və bütövlükdə sistemin nəzərdə tutulan funksionallığına necə nail olmasını müəyyən edən qərarları və təlimatları əhatə edir. Proqram təminatının arxitekturası proqramçılar üçün bir plan rolunu oynayır və proqram təminatının qurulmasına xidmət edir [Martin, 2017].

Proqram təminatının əsasən üç fərqli arxitektura nümunəsi var (Şəkil 1.1):

- **Monolit arxitekturası:** Bütün komponentlərin bir-birinə bağlı olduğu vahid, sıx inteqrasiya olunmuş arxitektura.
- **Xidmət yönümlü arxitektura (SOA):** Bir-biri ilə əlaqə saxlayan servislərə bölmüş və eyni verilənlər bazasını istifadə edən arxitektura.
- **Mikroservislər arxitekturası:** Bir-biri ilə əlaqə saxlayan kiçik, müstəqil servislərə bölmüş arxitektura.



Şəkil 1.1. İnformasiya sistemlərində arxitekturalar

1.2 Monolit arxitekturası

Monolit arxitektura proqram təminatının dizaynında ənənəvi yanaşmaya istinad edir, burada tətbiqin bütün komponentləri bir yedə sıx şəkildə inteqrasiya olunur və vahid kod bazasına malik olur. Monolit arxitekturada istifadəçi interfeysi, biznes məntiqi və məlumat girişi təbəqələri daxil olmaqla bütün proqram tək vahid kimi hazırlanır, serverə yerləşdirilir və miqyaslanır. Monolit proqramlar adətən bir proqramlaşdırma dili və ya texnologiya yığınından istifadə etməklə qurulur və onlar tək server və ya server klasterində işləyir (Şəkil 1.2).



Şəkil 1.2. Monolit arxitekturası

Monolit arxitekturadan nə vaxt istifadə edilməlidir?

- Startuplarda ilkin məhsulun hazırlanması zamanı
- Miqyası və mürəkkəbliyi sadə, aydın olan layihələrdə
- Komandada mikroservislər arxitekturasında təcrübəsi olan şəxlər yoxdursa monolit arxitekturasından istifadə etmək daha məsləhətlidir.

Müsbət tərəfləri:

- **Proqram təminatını yazmaq rahatdır** - Monolit yanaşma tətbiqlərin qurulmasının standart üsuludur, istənilən mühəndis komandası monolit tətbiqi inkişaf etdirmək üçün lazımi bilik və bacarıqlara malikdir.
- **Debug və test etmək daha rahatdır** - Monolit tətbiqləri sazlamaq və sınaqdan keçirmək daha asandır. Monolit tətbiqlətin tək kod bazası olduğundan, biz end-to-end testləri daha sürətli keçirə bilərik.
- **Serverə yerləşdirmək daha rahatdır** - Monolit tətbiqlərdə çoxlu fayılları serverə yükləməyə ehtiyac yoxdur, sadəcə bir .jar/.war (javada yazılan tətbiq üçün) fayılını yükləmək kifayət edir.

Mənfi tərəfləri:

- **Zaman keçdikcə mürəkkəbləşir və başa düşmək çətin olur** - Zamanla tətbiqin funksyonallığı artır və monolit kod bazası olduqca böyük və mürəkkəb olur buna görə də idarə etmək çətinləşir.
- **Dəyişiklik etmək çətinləşir** - Yüksək sıx birləşmə ilə belə böyük və mürəkkəb tətbiqdə yeni dəyişiklikləri həyata keçirmək daha çətindir. İstənilən kod dəyişikliyi bütün sistemə təsir edir.
- **Yeni texnologiyalara adaptasiya olmaq çətindir** - Yeni texnologiyanın tətbiqi son dərəcə problemlidir, çünki monolitdə olan bir-birinə bağlı asılılıqlar səbəbindən bütün tətbiq yenidən işlənib hazırlanmalıdır.
- **Miqyaslamaq çətindir** - Komponentləri müstəqil şəkildə miqyaslandırmaq olmur, yeganə seçim bütün tətbiqin miqyasını artırmaqdır bu da əlavə resurs sərf edir [Kocher, 2018].

1.3 Mikroservislər arxitekturası

Mikroservislər birlikdə işləyən kiçik, müstəqil servislərdir. Gəlin bu tərifi bir qədər daha da aydınlaşdırmağa çalışaq. Təsəvvür edək ki bizim online alış-şatış bir biznesimiz var. Bu biznes üçün proqram təminatını yazmaq lazımdır. Proqram təminatının kod hissəsi yazılmamışdan əvvəl onun arxitekturasını qurmaq lazımdır. Axrxitekturanı qurmaq üçün

isə bizə biznesin tələbləri və funksional və qeyri-funksional tələblər lazımdır. Belə bir platforma üçün təxmini aşağıdakı formada tələblər (user story) ola bilər. Bunlar:

▪ Mən bir istifadəçi kimi **məhsulları siyahıya almaq** istəyirəm.

▪ Mən bir istifadəçi kimi məhsulları **marka və kateqoriyalara görə süzgəcdən keçirmək** istəyirəm.

▪ Mən bir istifadəçi kimi **məhsulun bütün xüsusiyyətlərini** ekranında görmək istəyirəm.

▪ Bir istifadəçi kimi almaq istədiyim məhsulları **alış-veriş səbətinə qoya bilmək** istəyirəm.

▪ Bir istifadəçi kimi mən səbətimdə olan bütün məhsulların **ümumi dəyərini görmək** istəyirəm ki, **almaq imkanım olub-olmadığını öyrənim**.

▪ Bir istifadəçi olaraq alış-veriş səbətində hər bir məhsulun ümumi dəyərini görmək istəyirəm ki, **malların qiymətini yenidən yoxlaya bilim.**

▪ Mən bir istifadəçi kimi bütün **məhsulların hara göndəriləcəyini müəyyən etmək** istəyirəm.

▪ Mən bir istifadəçi kimi **çatdırılma ünvanına qeyd əlavə etmək** istəyirəm ki, **xüsusi təlimatlar** verə bilim.

▪ Bir istifadəçi kimi mən **kredit kartı məlumatımı yoxlanışı** zamanı dəqiqləşdirmək istəyirəm ki, **məhsullar üçün ödəniş edə bilim.**

▪ Bir istifadəçi olaraq sistemin mənə **nə qədər məhsulun olduğunu** bildirməsini istəyirəm ki, nə qədər məhsul ala biləcəyimi biləcəm.

▪ Bir istifadəçi kimi mən sifariş nömrəsi ilə **sifarişin təsdiqi e-poçtu almaq istəyirəm** ki, məndə satınalma sübutu olsun.

▪ Bir istifadəçi kimi **köhnə sifarişlərimi və sifariş tarixçələrimi sadalamaq** istəyirəm.

▪ Bir istifadəçi kimi mən sistemə **istifadəçi kimi daxil olmaq** istəyirəm və sistem **alış-veriş səbətimdəki əşyaları yadda saxlamalıdır.**

Yuxarda qeyd olunan istifadəçi hekayələrinə baxsaq bu platformanın müxtəlif funksionallıqları var. Eyni zamanda proqram təminatı kifayət qədər böyükdür buna görə fərqli komandalar lazım olacaq. Zaman keçdikcə yeni funksionallıqlar gələ bilər, müəyyən dəyişikliklər ola bilər. Bu platforma üçün ən yaxşı seçimlərdən biri mikroservislər arxitekturasıdır(Şəkil 1.3).



Şəkil 1.3. Mikroservis arxitekturası

Martin Fowlerin mikroservislər haqqındakı məqaləsində: Mikroservis arxitektura üslubu hər birinin öz prosesi ilə işləyən və bir-biri ilə HTTP və ya gRPC API ilə əlaqə saxlayan kiçik servislər dəsti kimi vahid tətbiqiq hazırlanma yanaşmadır.

Mikroservislər arxitekturasının xüsusiyyətləri:

- Birlikdə işləyə bilən kiçik, müstəqil və bir-birinə bağlı olmayan servislərdir.
- Hər bir servis kiçik proqramlaşdırma qrupu tərəfindən idarə oluna bilən ayrıca kod bazalarından ibarətdir
- REST, gRPC API-lərdən istifadə etməklə bir-biri ilə əlaqə qurur.
- Bir çox müxtəlif texnologiya yığınları ilə işləyə bilər.

- Hər bir servisin digər servislər ilə paylaşılmayan öz verilənlər bazası var

Müsbət tərəfləri:

- **Çevik, innovativ və bazara hazır**-Mikroservis arxitekturaları tətbiqlərin miqyasını artırmaq rahatdır və daha sürətli inkişaf etdirilir, innovasiyalara imkan verir və yeni funksiyalar üçün bazara çıxma müddətini sürətləndirir.
- **Rahat ölçüləndirilmə qabiliyyəti** - Mikroservislərin müstəqil şəkildə miqyasını artırmaq olar, beləliklə, siz bütün tətbiqi miqyaslandırmadan daha az resurs tələb edən kiçik servisləri genişləndirə bilərik.
- **Kiçik və fokuslanmış komandalar** - Mikroservislər tək bir komandanın rahatlıqla yaza biləcəyi, test və deploy edə biləcəyi qədər kiçik olmalıdır.
- **Kiçik və ayrı kod bazası** - Mikroservislər kodu və ya məlumat bazasını digər servislərlə paylaşmır, asılılıqları minimuma endirir və yeni funksiyalar əlavə etməyi asanlaşdırır.
- **Rahat Deployment** - Mikroservislər davamlı inteqrasiya və fasiləsiz çatdırılma (CI/CD) imkanı verir, yeni ideyaları sınamağı və bir şey işləmədikdə geri qayıtmağı asanlaşdırır.
- **Aqnostik texnologiya, iş üçün düzgün alət** - Kiçik komandalar öz mikroservislərinə uyğun texnologiyanı seçə və servislərində texnologiya yığınlarının qarışığından istifadə edə bilərlər.
- **Davamlılıq və problemin izolyasiyası** - Mikroservislər nasazlığa dözümlüdür, retry və circuit breaking patternlərini həyata keçirməklə nasazlıqları düzgün idarə edir.
- **Məlumatların izolyasiyası** - Verilənlər bazaları mikroservislərin dizaynına görə bir-biri ilə ayrılır. Sxem yeniləmələrini yerinə yetirmək daha asandır, çünki yalnız bir verilənlər bazasına təsir edir.

Mənfi tərəfləri:

- **Mürəkkəblik** - Hər bir servis sadədir, lakin bütün sistem daha mürəkkəbdir. Deployment və bir-biri ilə əlaqə yüzlərlə mikroservis üçün mürəkkəb ola bilər.

- **Şəbəkə problemləri və gecikmə** - Mikroservislərdə daxili servislər bir-biri ilə əlaqə qurur, bu zaman servislərdə zəncirli əlaqələr gecikmə problemlərini artırır və biz şəbəkə problemlərini idarə etməliyik.
- **Development və test** - Monolit arxitekturası ilə müqaisədə mikroservis arxitekturalarında E2E prosesləri develop və test etmək çətindir.
- **Məlumatların bütövlüyü** - Mikroservislər öz məlumat davamlılığına malikdir. Məlumatların ardıcıllığı (consistency) problem ola bilər. Mümkünsə, eventual consistency-yə əməl edin.
- **Deployment** - Deployment çətin olur. Çünki, çoxlu devops avtomatlaşdırma proseslərinə və alətlərinə sərmayə qoymağ lazım gəlir. Mikroservislərlərin mürəkkəbliyi insanların tərəfindən deploy edilməsi üçün hədsiz dərəcədə böyük olur buna görə avtomatlaşdırma alətlərinə ehtiyac var.
- **Logging & Monitorinq** - Paylanmış sistemlər hər şeyi bir araya gətirmək üçün mərkəzləşdirilmiş loglanma sistemini tələb edir. Problemlərin mənbələrini izləmək üçün sistemin mərkəzləşdirilmiş loglanma sistemini vacibdir.
- **Debugging** - IDE vasitəsilə debugging artıq münkün olmur, çünki onlarla və ya yüzlərlə servis bir IDE-də işləməyəcək.

1.4 Niyə bizim mikroservislər arxitekturasına ehtiyacımız var?

Mikroservislər arxitekturası sənayedə ən müasir və ən məşhur arxitektura formasından biridir. Bu arxitektura formasında bütün sistem müstəqil servislərin birləşməsindən ibarətdir. Hər bir servisin öz xüsusi funksiyonallığı var və bu servislər fərqli proqramlaşdırma dillərində yazıla bilir.

Dünyanın ən böyük və uğurlu texnologiya şirkətlərin əksəriyyəti (Google, Amazon, Netflix, Spotify, Uber və s.) və Azərbaycanda olan əsas şirkətlər (Paşa Bank, Kapital Bank, ABB, GoldenPay və s.) mikroservis arxitekturasından istifadə edir və onların texnoloji uğurlarına ən böyük töhfə verənlərdən biri bu arxitektura hesab olunur.

Əgər mikroservis arxitekturası düzgün tətbiq olunarsa, təşkilatlar layihəhər üzərində rahatlıqla işləyə bilmək üçün minlərlə hətta on minlərlə müstəqil fəaliyyət göstərən kiçik komandalar yarada bilər. Bu, öz növbəsində, həmin təşkilatlara milyardlarla istifadəçiyə çatan yüksək miqyaslı sistemlər qurmağa imkan verir ki, bu da onların əməliyyat xərclərini aşağı tutmaqla yanaşı, səmərəli və innovativ qalmasına imkan verir.

II FƏSİL. MIKROSERVISLƏR ARXITEKTURASINDA ƏLÇATANLIĞI TƏMIN ETMƏK ÜÇÜN DIZAYN PATTERNLƏR VƏ PRINSIPLƏR

2.1 API Gateway nümunəsi

Mikroservislər arxitekturasında çoxlu servislər olduğundan bəzi problemlər yaranır. Bu problemləri aradan qaldırmaq üçün hər problemə uyğun olaraq dizayn patternlər yaradılmışdır. İndi API gateway haqqında qısa məlumat və bu pattern olmayanda hansı problemlər yaranır, hansı problemləri həll etdiyinə həm nəzəri həm də praktiki olaraq baxacağıq.

API Gateway müştərilər və backend servisləri arasında əlavə şəbəkə komponentidir. Müştərilər birbaşa backendlə əlaqə saxlamaq əvəzinə sorğuları yalnız API Gateway-ə göndərirlər. Orada daxil olan sorğular ya birbaşa emal oluna bilər, ya da əsas servislərə yönləndirilə bilər. Bununla bərabər API Gateway-də routing, autorizasiya, rate limiting, load balancing, keşləmə, monitorinq, loglama, transformasiya və s. funksyonallıqları var [Scholl, Swanson and Fernandez, 2019].

Gəlin indi API Gateway patterni olmadan yazdığımız mikroservislərin yaratdığı problemlərə baxaq. Təsəvvür edək ki, biz fitness mərkəzləri, xəstəxanalar və həkimlərin ofisləri kimi müştərilərə və bizneslərə rəqəmsal xidmətlər göstərən səhiyyə və fitnes şirkətiyik. Müştəri tərəfində, platformamızla qarşılıqlı əlaqədə olan ağıllı saatlar, mobil telefonlar və digər geyinilə bilən aksesuarlar kimi müxtəlif qurğularımız var. Bundan əlavə, bizim sistemimizə daxili olamaq üçün veb brauzerlərindən istifadə edən digər şirkətlərimiz, serverlərimiz, kompüterlərimiz və səhiyyə mütəxəssislərimiz var. Və onların funksionallığına xas olan müxtəlif API-lər ilə işləyən onlarla və hətta yüzlərlə mikroservisimiz var (Şəkil 2.1).



Şəkil 2.1. API Gateway olmadan yazdığımız mikroservislər

Şəkildə müştərilər və servislər arasında yaranan əlaqəni görə bilirik. Birinci problem, mikroservislər tərəfindən hazırlanmış müxtəlif API endpointləri çoxlu şəkildə hard code olunmuş formada frontendə və müştərilərin SDK-ları ilə əlaqələnib. Bu, müştəri tərəfindəki kodunu sistemimizin daxili tətbiqi ilə sıx əlaqələnib. Gələcəkdə biz sistemimizdə yeni dəyişiklik etsək bu sıx əlaqəni yenidən hər yerdən dəyişmək lazım olacaq. Gəlin bir nümunə üzərindən gedək. Məsələn, təsəvvür edək ki, nə vaxtsa biz mövcud sağlamlığı izləyən mikroservisimizi ürək döyüntülərini müəyyən edən və qan təzyiqini ölçən iki mikroservisə bölməyə qərar verdik. İndi hər iki mikroservis yalnız sağlamlığı izləyən mikroservisə aid olan API-ləri təqdim edir. Yuxarıdaki şəkildə göründüyü kimi sağlamlığı izləyən servisimiz səhiyyə mütəxəssisləri, proqramçılar və mobil telfonlar ilə əlaqələndirilib. Bu sıx birləşməyə görə, biz də yeni API-lərdən istifadə etmək üçün hər bir cihaz növündə bütün müştəri tərəfindəki kodunu yenidən nəzərdən keçirməli və düzətməli olacağıq. Bu da əlavə çətinlik və artıq işlər yaradır.

İkinci problem, hesab edək ki yazdığımız mikroservisləri üç müxtəlif şirkətə veririk. Hər şirkət isə özünün fərqli APİ-ləri qəbul etmə texnologiyası var. Birinci şirkət SOAP+XML, ikinci şirkət REST+JSON, üçüncü şirkət gRPC+ProtoBuf texnologiyası ilə işləyir. Əgər biz burda API Gateway istifadə etməsək servislərimiz üçün üç versiyada API yazmaq lazım olacaq (SOAP+XML, REST+JSON, gRPC+ProtoBuf) ki hər şirkətə uyğun formada məlumatı qaytaraq.

Üçüncü problem, mikroservislərimizi monitor etmək, izləmək, autorizasiya etmək, API-lərə limit qoymaqdır. Əgər bizim sistemimizdə Gateway olmasa bütün servislərdə bu məntiqləri yazmalı olacayıq. Bu həm əlavə iş olacaq ki hər komanda biznes məntiqə yox bu funksyonallıqlara baxacaq və əlavə vaxt itkisinə gətirib çıxaracaq, həm də kod dublikasiyası çox olacaq bu da proqramlaşdırmada yaxşı bir praktika deyil və əlavə olaraq biz bu funksiyonallıqlara yeni bir xüsusiyyət əlavə etsək bütün servisləri dəyişmiş olacayıq [Brian MacDonald and Holly Bauer, 2016].

Yuxarıda qeyd etdiyimiz problemləri aradan qaldırmaq, müştəri tərəfimizi daxili arxitekturadan ayırmaq və API-lərin idarəsini asanlaşdırmaq üçün API Gateway patterndən istifadə edə bilərik. API Gateway patterni xüsusilə mikroservis arxitekturası üçün faydalıdır və bir çox şirkətlər tərəfindən istifadə olunur (Şəkil 2.2).



Şəkil 2.2. API Gateway olduqda

Şəkildəki nümunədə göründüyü kimi sistemizin girişində API Gateway yerləşir. Ən sadə sennaridə bu pattern sadəcə verilmiş API endpointlərini müvafiq yerlərə yönləndirir. Lakin əksər hallarda o, yanlız yöndəndirmədən başqa daha çox şey edə bilir. API Gateway mikroservis arxitekturalarında müxtəlif məqsədlər üçün istifadə olunur. Aşağdakı şəkildə tam olaraq bu məqsədlər qeyd olunub (Şəkil 2.3).



Şəkil 2.3. API Gateway-in müxtəlif məqsədlər üçün istifadəsi

Gəlin indi bu funksyonallıqlara bir-bir baxaq:

1. Şəkildə gördüyümüz kimi, müştərilərin proqramları və mikroservislər var. Mikroservislər və müştəri proqramları arasında bizim API Gateway vasitəçi kimi çıxış edəcək. Birinci addımda mikroservislərdən gələn sorğu və cavabların gözlənilən formata və struktura uyğun olmasını yoxlamaq üçün istifadə edilə bilər. Bu, səhvlərin qarşısını almağa və mikroservislərin düzgün işləməsini təmin etməyə kömək edə bilər.

2. İkinci addımda IP ünvanının qara və ya ağ siyahıda olamasına baxır və buna uyğun olaraq müxtəlif formada davranır.

3. Üçüncü addımda bəzi autentifikasiya və avtorizasiyanı da həyata keçirə bilər. Burda artıq üçüncü bir tərəf (Keycloak) və yaxud özümüzün yazdığı servis ola bilər. Əgər bu servisdən normal cavab gəlsə mikroservislərə sorğu gedəcək, əks halda səhv olaraq geri qayıdacaq.

4. Autentifikasiya və avtorizasiyadan sonra biz bəzi rate limitini də tətbiq edə bilərik, yəni müəyyən bir müştəridən gələn sorğuların sayını və ya sorğuların sayını məhdudlaşdıra bilərik. Bu da DDOS hücumların qarşısını alır.

5. Beşinci addımda müştərilərdən sorğuları qəbul edir və onları müvafiq mikroservisə yönləndirir. Bu, müştərilərə bir giriş nöqtəsi vasitəsilə müxtəlif mikroservislərə daxil olmaq imkanı verir və ümumi sistem dizaynını sadələşdirir.

6. Altıncı addımda Servis discovery mövcud mikroservisləri və onların yerlərini aşkar etmək üçün istifadə oluna bilər ki, bu da müştərilərə xüsusi ünvanlarını bilmədən onlara daxil olmaq imkanı verir. Bu, müştərilərə təsir etmədən yeni mikroservislər əlavə etməyi və ya mövcud olanlara dəyişiklik etməyi asanlaşdıra bilər.

7. Yeddinci addımda çoxlu backend xidmətlərindən gələn cavabları müştəri üçün vahid cavabda birləşdirə bilər, müştərinin etməli olduğu sorğuların sayını azaldır və inteqrasiya prosesini sadələşdirir. Bu həmçinin aggregator da adlanır.

8. Səkkizinci addımda protokolun çevrilməsi gatewaydən gələn sorğuları backend servislərə yönləndirməzdən əvvəl bir protokoldan digərinə çevirməyi göstərib.

9. API Gateway, hətta backend xidmətləri əlçatmaz olduqda və ya gözlənilməz nəticələr qaytardıqda belə, səhvləri idarə etmək və müştərilərə səhv cavabları qaytarmaq üçün bir yol təqdim edir.

10. API Gateway-dən uğursuz mikroservisin bütün sistemi sıradan çıxarmasının qarşısını almaq üçün Circuit Breaker patternindən istifadə olunur. Circuit Breaker mikroservislərin sağlamlığına nəzarət edə bilir və zəruri hallarda avtomatik olaraq ehtiyat nüsxə cavablarını geri qaytarır.

11. API Gateway sorğular və cavablar haqqında ölçüləri və digər məlumatları toplaya bilər, mikroservislərin performansı və davranışı haqqında dəyərli fikirlər təqdim edir. Bu,

problemləri müəyyən etməyə və diaqnostika etməyə və sistemin ümumi etibarlılığını və dayanıqlığını yaxşılaşdırmağa kömək edə bilər.

12. API Gateway mikroservislərdən gələn cavabları keşləyə bilər, mikroservislərə yönləndirilməli olan sorğuların sayını azalda və sistemin ümumi performansını yaxşılaşdıra bilər [Walls 2018]

Gateway-in xidmət etdiyi bütün route-lərini təmin etmək üçün RouteLocator tipli class yaratmalıyıq. Request və responsda istənilən filtri daxil edə bilərik:

Filterlər:

1. Göndərilən sorğunu loglamaq
2. Sorğudan qayıdan cavabı loglamaq
3. Autentifikasiya filterini qoymaq

2.2 Database per service nümunəsi

Təsəvvür edək ki, siz mikroservis arxitekturası modelindən istifadə edərək onlayn mağaza proqramı hazırlayırsınız. Əksər servislər bir növ verilənlər bazasında məlumatları saxlamalıdır. Məsələn, **sifariş servisi** sifarişlər haqqında məlumatı, **müştəri servisi** isə müştərilər haqqında məlumatları saxlayır. Bu məlumatlar bir verilənlər bazasında iki ayrı cədvəl kimi saxlanır (Şəkil 2.4) [Bonér, 2016].

Problem

Mikroservislərdə verilənlər bazası arxitekturası necə olmalıdır?

- Servislər müstəqil olmalıdır ki, onlar sərbəst şəkildə inkişaf etdirilə, deploy oluna və genişləndirilə bilsin. Buna görə hər servisə uyğun öz databazası olmalıdır. Əks halda databazada bir problem baş versə bütün sistemdə problem baş verəcək.
- Bəzi biznes əməliyyatları birdən çox xidmətləri əhatə edən invariantları tətbiq etməlidir. Məsələn, Sifariş vermək nümunəsi yeni Sifarişin müştərinin kredit limitini keçməyəcəyini təsdiq etməlidir. Digər biznes əməliyyatları birdən çox servisə məxsus məlumatları yeniləməlidir.



Şəkil 2.4. Bir verilənlər bazasında iki ayrı cədvəl

- Bəzi biznes əməliyyatları birdən çox servisə məxsus olan məlumatları sorğulamalıdır. Məsələn, Mövcud Kreditə Baxış sorğusu müştəridən kredit Limitini və açıq sifarişlərin ümumi məbləğini hesablamaq üçün Sifarişləri tapmaq üçün sorğu etməlidir.
- Bəzi sorğular çoxsaylı xidmətlərə məxsus olan dataya qoşulmalıdır. Məsələn, müəyyən bir bölgədə müştəriləri və onların son sifarişlərini tapmaq müştərilər və sifarişlər arasında birləşməni tələb edir.
- Məlumat bazaları bəzən miqyaslaşdırmaq üçün təkrarlanmalı və parçalanmalıdır.
- Fərqli servislərin fərqli məlumat saxlama tələbləri var. Bəzi xidmətlər üçün SQL verilənlər bazası ən yaxşı seçimdir. Digər xidmətlər üçün mürəkkəb, strukturlaşdırılmamış məlumatların saxlanması üçün yaxşı olan MongoDB kimi NoSQL verilənlər bazası və ya qrafik məlumatlarını səmərəli şəkildə saxlamaq və sorğulamaq üçün nəzərdə tutulmuş Neo4J tələb oluna bilər.

Həllər - Hər bir mikroxidmətin davamlı məlumatlarını həmin xidmətə özəl saxlayın və yalnız onun API vasitəsilə əlçatan olsun. Xidmətin əməliyyatları yalnız verilənlər bazasını əhatə edir.

Aşağıdakı diaqram bu modelin strukturunu göstərir (Şəkil 2.5).



Şəkil 2.5. Ayrı verilənlər bazasında iki ayrı cədvəl

Xidmətin məlumat bazası həmin xidmətin həyata keçirilməsinin fəal hissəsidir. Ona digər xidmətlər tərəfindən birbaşa daxil olmaq mümkün deyil.

Xidmətin davamlı məlumatlarını gizli saxlamağın bir neçə fərqli yolu var. Hər bir xidmət üçün verilənlər bazası serveri təmin etməyə ehtiyac yoxdur. Məsələn, əlaqəli verilənlər bazasından istifadə edirsinizsə, seçimlər bunlardır:

- Hər xidmətə görə şəxsi masalar - hər bir xidmətdə yalnız həmin xidmət tərəfindən istifadə edilməli olan cədvəllər dəsti var
- Hər xidmət üzrə sxem – hər bir xidmətin həmin xidmətə xas verilənlər bazası sxemi var
- Hər xidmət üçün verilənlər bazası serveri – hər bir xidmətin öz verilənlər bazası serveri var.

- Hər xidmətə görə fərdi masalar və hər xidmət sxemi ən aşağı yükə malikdir. Hər bir xidmət sxemindən istifadə cəlbedicidir, çünki bu, sahibliyi daha aydın edir. Bəzi yüksək məhsuldarlığa malik xidmətlər öz verilənlər bazası serverlərinə ehtiyac duya bilər.

Bu modulluğu gücləndirən maneələr yaratmaq yaxşı fikirdir. Məsələn, siz hər bir xidmətə fərqli verilənlər bazası istifadəçi identifikatoru təyin edə və icazələr kimi verilənlər bazasına girişə nəzarət mexanizmindən istifadə edə bilərsiniz. İnkapsulyasiyanı tətbiq etmək üçün heç bir maneə olmadıqda, tərtibatçılar həmişə xidmətin API-sini yan keçməyə və həmin xidmətin məlumatlarına birbaşa daxil olmağa meylli olacaqlar [Bruce and Paulo A. Pereira, 2018].

Mikroservislər modeli möhkəmliyi və sadəliyi ilə uzun müddətdir ki, tərtibatçılar arasında maraq mərkəzi olmuşdur. Bu, tərtibatçılara tətbiqləri tez və daha inteqrasiya olunmuş şəkildə yazmağa imkan verdi. Bir çox tərtibatçılar mikroservislərdən istifadə edərək ən müasir arxitekturalar yaratsalar da, onların yaxşıdan çox zərər verən antipatternləri də var. Tərtibatçıların etdiyi əsas dizayn səhvlərindən qaçmaq üçün müxtəlif mikroservis nümunələrini başa düşmək çox vacibdir. Bu yazıda gəlin mikroservislər paradiqması kontekstində verilənlər bazası modellərini və onların necə həyata keçirilə biləcəyini müzakirə edək. Bu nümunələrin nə olduğunu və e-ticarət sahəsində necə istifadə edildiyini nəzərdən keçirəcəyik.

Adətən monolit proqramda tətbiqin bütün ehtiyacları üçün məlumatları saxlayan tək böyük məlumat anbarı var. Mikroservislərdə biz tətbiqi müstəqil xidmətlərə bölürük. Hər bir xidmət modeli üçün verilənlər bazası ümumi məlumat anbarı əvəzinə hər bir mikroservis üçün müstəqil, genişlənə bilən və təcrid olunmuş verilənlər bazalarına malik olmağı təklif edir. Hər bir xidmət öz verilənlər bazasına müstəqil daxil olmalıdır, xidmətlər bir-birinin verilənlər bazasına birbaşa daxil ola bilməz.

Bu model xidmətlər arasında boş əlaqənin olmasını təmin edir ki, bir xidmətdəki problemlər və ya dəyişikliklər başqa xidmətlərə və ya verilənlər bazasına təsir göstərməsin. Bundan əlavə, bütün xidmətlər üçün vahid məlumat bazasından istifadə

etməyə ehtiyac yoxdur. Hər bir xidmət öz tələblərinə uyğun olaraq verilənlər bazasını seçə bilər.

Nümunə Ssenarisi-İstənilən e-ticarət platformasının ehtiyac duyduğu ən ümumi xidmətlərdən bəzilərinə misallar verək. Tipik Sifariş axını bir çox xidmətlər tərəfindən idarə olunur. Sifariş idarəetmə sisteminin qarşılıqlı əlaqədə olduğu iki xidmət məhsul xidməti və inventar xidmətidir. Element xidmətinə əşyalar, onların dəyəri, onları satan satıcılar, inventar xidmətinə isə əşyalar üçün nə qədər ehtiyat qaldığı barədə məlumat lazımdır. Hər iki məlumatın saxlanması tələbləri bir-biri ilə bağlıdır, lakin biz onları vahid verilənlər bazasında saxlasaq, o, çox böyük, mürəkkəb, idarə olunması çətinləşəcək və sorğuların (xüsusilə qoşulmaların) yerinə yetirilməsi çox vaxt aparacaq.

Bu problemi həll etmək üçün xidmət modeli üzrə verilənlər bazasından istifadə edə bilərik. Bir məhsul bazası məhsul məlumatlarını, digər inventar bazası isə inventar məlumatlarını saxlayacaq. Elementlər xidməti əşyalar bazasına, inventar xidməti isə inventar bazasına qoşulacaq. Beləliklə, məhsul xidmətində hər hansı bir problem yarandığı təqdirdə inventar xidməti fəaliyyətini davam etdirəcək.

Çoxsaylı xidmətlərdən məlumat tələb edən sorğuları necə yerinə yetirmək olar?

Burada həll edilməli olan əsas problemlərdən biri məlumatların həm elementlərdən, həm də inventar verilənlər bazalarından oxunması lazım olduqda baş verənlərdir. Məsələn, mənə məhsulun adı və o məhsulu satan bütün satıcıların inventar nömrələri lazımdırsa nə etməli? Bu halda biz adətən bir verilənlər bazası və içərisində iki cədvəl varsa birləşməni həyata keçiririk.

Proqramlar birləşməni yerinə yetirən verilənlər bazası əvəzinə birləşməni həyata keçirə bilər. Elementlər xidməti inventar xidmətindən məlumat tələb edirsə, o, sorğu verə bilər. İnventar xidmətində bu məlumatları təmin etmək üçün API-lər olacaq. Məsələn, müəyyən bir elementin inventarlaşdırılması üçün elementin adı elementlər bazasından əldə edilə bilər və sonra element ID-dən istifadə edərək, həmin element ID-si üçün inventar əldə etmək üçün inventar xidmətinə API sorğusu göndərilə bilər. Bu API tərkibi

kimi tanınır. Buna nail olmağın bir yolu aşağıda daha ətraflı izah edildiyi kimi Saga modelindən istifadə etməkdir [Rodger, 2017] .

2.3 Polyglot persistence nümunəsi

Proqram həllərinin artan mürəkkəbliyi ilə bir verilənlər bazası növü müasir tətbiqlərin müxtəlif ehtiyaclarını ödəmək üçün artıq kifayət etməyə bilər. Polyglot Persistence burada ortaya çıxır: ən yaxşı həll etdikləri problem əsasında eyni proqramda çoxlu verilənlər bazasından istifadə konsepsiyası. Hər bir xidmətin potensial olaraq öz verilənlər bazasına malik olduğu mikroservislər dünyasında Polyglot Persistence-dən istifadə etmək daha da məna kəsb edir. Bu yazıda biz Spring Microservices-də Polyglot Persistence-in necə tətbiq olunacağını araşdıracağıq [Tanasseri and Rai, 2017].

Çoxdilli Davamlılığa Giriş

Müasir rəqəmsal əsrdə proqram təminatının tətbiqi sahəsi böyüdükcə, onların emal etdiyi məlumatların müxtəlifliyi və mürəkkəbliyi də artır. Tətbiq tələblərinin müxtəlifliyi artdıqca, yalnız bir verilənlər bazası növünə etibar etmək proqramın potensialını məhdudlaşdıra bilər. Bu məhdudiyyət Multilingual Persistence kimi tanınan konsepsiyanın yaranmasına səbəb oldu.

Poliqlot Persistence nədir?

Polyglot Persistence, bir tətbiqdə müxtəlif məlumat saxlama ehtiyaclarını ödəmək üçün müxtəlif verilənlər bazası texnologiyalarından istifadə təcrübəsidir. “Çoxdilli” termini ümumiyyətlə birdən çox dildə danışan şəxsə aiddir. Eynilə, verilənlər bazası kontekstində bu, müəyyən bir tapşırığın xüsusi ehtiyaclarına uyğun olaraq, proqramın müxtəlif verilənlər bazaları ilə "danışmaq" qabiliyyətinə aiddir.

Polyglot Persistence-in mahiyyəti onun mantrasındadır: “Doğru iş üçün düzgün alətdən istifadə edin”. Tərtibatçılar bütün məlumatları bir ölçüyə uyğun həllə sığdırmağa çalışmaq əvəzinə, çoxsaylı verilənlər bazasının ən yaxşı xüsusiyyətlərindən istifadə edə bilərlər.

Ənənəvi olaraq, əlaqəli verilənlər bazaları əksər proqramlar üçün əsas həll yolu olmuşdur. Onlar məlumatların saxlanması və sorğulanması, ACID (Atomicity, Consistency, izolyasiya, davamlılıq) xassələri vasitəsilə ardıcıllıq və bütövlüyü təmin etmək üçün strukturlaşdırılmış metod təqdim edir. Bununla belə, veb-miqyaslı tətbiqlər meydana çıxmağa başladıqca, böyük həcmli, müxtəlif və sürətlə dəyişən məlumatların işlənməsi ehtiyacı meydana çıxdığından, ənənəvi relational verilənlər bazalarının məhdudiyyətləri aydın oldu.

MongoDB, Cassandra və Neo4j kimi NoSQL verilənlər bazalarının artması sənəd, açar/dəyər, sütun ailəsi və diaqram kimi müxtəlif məlumat modellərinə müraciət edən alternativlər təqdim etdi. Bu verilənlər bazaları, xüsusən də böyük verilənlər və real vaxt proqramları kontekstində əlaqəli verilənlər bazalarının tez-tez mübarizə apardığı genişlənmə və çeviklik təklif edirdi.

NoSQL verilənlər bazaları əlaqəli verilənlər bazalarının bəzi məhdudiyyətlərini həll etsə də, öz çətinliklərini də gətirir. Bəzilərində əlaqəli verilənlər bazalarının ciddi ardıcıllıq zəmanətləri yox idi, digərləri isə fərqli öyrənmə əyrilərinə və əməliyyat mürəkkəbliyinə malik idi.

Cavab relational verilənlər bazalarını NoSQL həlləri ilə tamamilə əvəz etmək deyil, hər birinin ən parlaq olduğu yerdə istifadə etmək idi. Beləliklə, Çoxdilli Davamlılıq konsepsiyası diqqəti cəlb etməyə başladı. O, tərtibatçılara strukturlaşdırılmış, ardıcıl yaddaşın tələb olunduğu relational verilənlər bazasından və çeviklik və genişlənmənin vacib olduğu NoSQL verilənlər bazasından istifadə etməyə imkan verdi.

Niyə indi həmişəkindən daha vacibdir?

Mikroservislər arxitekturasının meydana çıxması ilə, burada hər bir xidmət avtonom olmaq və müəyyən bir iş funksiyasına cavab vermək üçün nəzərdə tutulmuşdur, məlumatların xüsusi saxlanmasına ehtiyac daha aydın görünür. Tövsiyə xidməti istifadəçi seçimlərini və münasibətlərini izləmək üçün Neo4j kimi qrafik verilənlər bazasından istifadə edə bilər, giriş xidməti isə Elasticsearch kimi sənəd əsaslı NoSQL verilənlər bazasını daha uyğun tapa bilər.

Bundan əlavə, bulud əsaslı tətbiqlərin artması ilə müxtəlif idarə olunan verilənlər bazası xidmətləri ilə inteqrasiya imkanı əhəmiyyətli bir üstünlüyə çevrilir. Polyglot Persistence bu müxtəlif məlumat saxlama həllərini problemsiz şəkildə inteqrasiya etmək üçün çevikliyi təmin edərək, hər bir mikroservisin xüsusi ehtiyacları üçün ən optimallaşdırılmış verilənlər bazasına malik olmasını təmin edir.

Tətbiq tələblərinin artan müxtəlifliyi, mikroxidmətlərin artması və müxtəlif mülkiyyət bazalarının mövcudluğu birləşərək Polyglot Persistence-i sadəcə bir söz deyil, müasir tətbiqlərin səmərəliliyini, genişlənməsini və möhkəmliyini artıran əsl memarlıq strategiyasına çevrildi.

Mikroservis arxitekturaları təbii olaraq çoxdilli davamlılıq ssenarilərini uyğunlaşdırmağa meyllidir. Mikroxidmətlərin texnoloji müstəqilliyi sayəsində əslində funksiyalarından asılı olaraq müxtəlif məlumat saxlama texnologiyalarını qəbul etmək mümkündür.

Bir tərəfdən, belə bir yanaşma sistemin ümumi performansını artırmağa imkan verir. Memarlar və tərtibatçılar hər bir xidmətin spesifik performans tələblərinə ən yaxşı uyğun gələn funksionallığı təmin edən texnologiyanı seçməklə hər bir mikroservisin mümkün qədər səmərəli olması üçün sazlaya bilərlər. Digər tərəfdən, mürəkkəbliyin artması da ola bilər. Bu cür mürəkkəbliyi artıra bilən aspektlərdən biri tək mikroservislərə münasibətdə qlobal əhatə dairəsinə malik olan və beləliklə də onların sinxronizasiyasını tələb edən verilənlərlə təmsil olunur.

Poliqlot Persistence və Mikroservislər

Poliqlot əzmkarlığı, hər bir texnologiyanın müxtəlif tələblərə cavab vermək üçün istifadə oluna biləcəyi eyni proqram daxilində birdən çox məlumat saxlama texnologiyalarından istifadə deməkdir. Məsələn:

- Əsas dəyər verilənlər bazaları – tez-tez sürətli oxumaq və yazmaq tələb olunduqda qəbul edilir.
- RDBMS - əməliyyatlar tamamilə zəruri olduqda və məlumat strukturları dəyişməz olduqda istifadə olunur.

- Sənədə əsaslanan verilənlər bazaları – yüksək yüklər və çevik məlumat strukturları ilə işləyərkən istifadə olunur.
- Qrafik verilənlər bazası – keçidlər arasında sürətli naviqasiya tələb olunduqda istifadə olunur.
- Sütun verilənlər bazaları – geniş miqyaslı analitika lazım olduqda istifadə olunur [Carnell, 2017].

Çoxdilli Davamlılıq Ssenarisi: One to One

